***Ramiz İsmayıl,***
***Xırdalan. ş.***



# *Əbülfət Mədətoğlu*

**(Şair Ə.Mədətoğlunun 60 yaşına-ürəyimdən keçənlər)**

**Allahın bəndəsi-öz adamıdı,
Şair balasıdır-söz adamıdı,
Dünyanın ən təmiz, düz adamıdı,
Əbülfət Mədətoğlu**

**Qaçqın adı,Köçkün adı daşıdı,
Varı -Varidatı karandaşıdı,
Haqqın, ədalətin məhək daşıdı,
Əbülfət Mədətoğlu**

**Yurddan-yurda köçə-köçə yaşadı,
Daxma-daxma,küçə-küçə yaşadı,
Soruşan olmayıb necə yaşadı,
Əbülfət Mədətoğlu**

**Gözündə bir dərya nəmi gəzdirib,
Bu qəm dəryasında gəmi üzdürüb,
Dərdə divan tutub,qəmi bezdirib,
Əbülfət Mədətoğlu**

**Əyilib sınmadı ac qalanda da,
Yolunu azmadı dar dalanda da,
Sevinə bilmədi ev alanda da,
Əbülfət Mədətoğlu**

**Elin ozan oğlu yurd şairidir,
Bu namərd dünyanın mərd şairidi,
Adı üstündədi:"Dərd şairidi"
Əbülfət Mədətoğlu**

**Payı,bəxşeyşi ürəkdi dosta,
Şeiri ruzidi ,çörəkdi dosta,
Allahım,ömür ver-gərəkdi dosta,
Əbülfət Mədətoğlu**

**Şeirim zəifsə məni bağışla,
Özün bər-bəzək vur,özün naxışla
Ramizi tanıdı(n) bircə baxışla,
Əbülfət Mədətoğlu**

ədalət.-2018.-25 dekabr.-S.8.